***Nüyvər Şərifova***

## *Xocalımın qan gölləri qurumaz*

Necə edim bu ürəyə söz deyim,
Neçə kərəm qələm tutum söz deyim.
Alınmadı bu qisaslar yüz deyim,
Xocalımın qan gölləri qurumaz,
İllər-illər tutsam matəm, tutsam yaz.

Bu acını necə büküm, bələyim,
Fəryadıma səs vermədi fələyim.
Mən başıma daşmı, külmü ələyim,
Xocalımın qan gölləri qurumaz,
İllər-illər tutsam matəm, tutsam yaz.

Qadın-uşaq dağa-daşa düzüldü,
Al qanları şırnaq-şırnaq süzüldü.
Baş bədəndən, qol çiyindən üzüldü,
Xocalımın qan gölləri qurumaz,
İllər-illər tutsam matəm, tutsam yaz.

Ələm-ələm nalələri ucaldı,
Zalım yağı bu fəryaddan güc aldı.
Anam-bacım bir gecədə qocaldı,
Xocalımın qan gölləri qurumaz,
İllər-illər tutsam matəm, tutsam yaz.

Qocanın əsası düşdü əlindən,
Qundağını ana atdı belindən.
Körpəsinin nalı qopdu dilindən,
Xocalımın qan gölləri qurumaz,
İllər-illər tutsam matəm, tutsam yaz.

Ana, tez ol deyə, oğul çağırdı,
O gecə də atəş-alov yağırdı.
Hamilələr ağrı çəkib bağırdı,
Xocalımın qan gölləri qurumaz,
İllər-illər tutsam matəm, tutsam yaz.

Dağ yolunda dizdən hündür qar vardı,
Oğul, çıx get deyə, ata yalvardı.
Bu dünyada son ümidi o vardı.
Xocalımın qan gölləri qurumaz,
İllər-illər tutsam matəm, tutsam yaz.

Necə qoysun ana yetkin qızını,
Neçə illər çəkib qəmzə, nazını.
Gəlib Kərəm, çalsın yanıq sazını,
Xocalımın qan gölləri qurumaz,
İllər-illər tutsam matəm, tutsam yaz.

Ana dedi burax mənim əlimi,
Səndən ötrü ağatmışam telimi.
Qaç uzaqlaş, mən gözlərəm ölümü.
Xocalımın qan gölləri qurumaz,
İllər-illər tutsam matəm, tutsam yaz.

Əsir düşdü neçə-neçə insanlar.
Zülüm ilə axıdıldı al qanlar.
Qarda qaldı bütün şəhid olanlar,
Xocalımın qan gölləri qurumaz,
İllər-illər tutsam matəm, tutsam yaz.

Bu dözümün qalmadı heç kamanı,
Nə qədər biz gözləyək ki, zamanı.
Kor qoymalı torpaqdan pay umanı,
Xocalımın qan gölləri qurumaz,
İllər-illər tutsam matəm, tutsam yaz.

Səda düşdü gecə Azərbaycana,
Zülüm etdi düşmən aciz hər cana.
Çingiz getdi bu acıya odlana,
Xocalımın qan gölləri qurumaz,
İllər-illər tutsam matəm, tutsam yaz.

Mən ağlaram qərib eldə yatana,
Acıyaram bu dərdlərə batana.
Lənət olsun araları qatana.
Xocalımın qan gölləri qurumaz,
İllər-illər tutsam matəm, tutsam yaz.

***Şərifova N. Xocalının qan gölləri qurumaz // Savalan. – 2008. – 26-29 yanvar.***